# NEFTÇALA: SOSİAL-İQTİSADİ İNKİŞAF ÜRƏKAÇANDIR






**Neftçalada 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclas keçirilmişdir. Heydər Əliyev Mərkəzində keçirilmiş yığıncağı rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyev açaraq toplantı iştirakçılarını salamlamış, 2016-cı ilin I yarım ilində sosial-iqtisadi inkişafın yekunları və qarşıda duran məsələlər barədə məruzə ilə çıxış edərək vurğulamışdır ki, ölkə rəhbəri cənab İlham Əliyevin sədrliyi ilə 10 iyul 2016-cı il tarixdə Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmiş və cənab Prezident iclasdakı nitqində demişdir: "Ölkə qarşısında duran əsas vəzifələr uğurla icra edilir. Ölkəmizin qeyri-neft sənayesi 2.4 faiz artıb. Bu çox ciddi artımdır və hesab edirəm ki, bu artım böyük ümidlər verir. Artıq müəyyən müddət ərzində hər bir rayonda sənaye zonalarının yaranması istiqamətində iş aparılır".**

Rayonda həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində 2016-cı ilin 6 ayında ümumi məhsul istehsalının həcmi 2015-ci ilin müvafiq dövrünə nisbətən 4,2 % artmış, ümumi məhsul istehsalı 124,6 milyon manat olmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 5,0 milyon manat çoxdur. 2016-cı ilin 6 ayında ümumi məhsulun tərkibində sənaye məhsulu 11 milyon 61,7 min manat və ya ümumi məhsulun 8,9 %-i qədər, kənd təsərrüfatı məhsulu 65 milyon 445,1 min manat və ya 52,5%, nəqliyyat xidməti 950,3 min manat və ya 0,8 %, rabitə xidməti 333,5 min manat və ya 0,3 %, ticarət, iaşə və digər xidmət sahələrinin həcmi 36 milyon 772,3 min manat və ya 29,5 %, tikinti işlərinin həcmi 10 milyon 60,5 min manat və ya 8,0 % olmuşdur. Ümumi məhsulun həcmində qeyri-dövlət bölməsinin payı 2015-ci ilin birinci yarısına nisbətən 3,4 % artaraq 90,3 %-ə çatmışdır. Adambaşına 1460 manatlıq məhsul istehsal edilmişdir ki, bu göstərici 2015-ci ilin müvafiq dövrünə nisbətən 3,2 % çoxdur. 2016-cı ilin birinci yarısında rayonda 6 yeni müəssisə yaradılmış, 569 fiziki şəxs fəaliyyətə başlamışdır. Yeni yaradılmış müəssisələr üzrə 25, fiziki şəxslər üzrə 569, mövcud müəssisə və təşkilatlarda 30 olmaqla cəmi 624 daimi yeni iş yeri açılaraq işsiz və iş axtaran vətəndaşlar işlə təmin olunmuşdur.

Rayonda aparılan tikinti-quruculuq və digər tədbirlər üzrə işlərə 650 nəfər, kənd təsərrüfatında mövsümi işlərə 2156 nəfər cəlb olunmuşdur. Ümumilikdə rayon üzrə 3430 nəfər işlə təmin olunmuşdur.

Rayonda fəaliyyət göstərən 12 sənaye müəssisəsi və bu sahədə fiziki şəxslərin fəaliyyəti nəzərə alınmaqla 11 milyon 61,7 min manatlıq sənaye məhsulu istehsal olunmuş, iş və xidmətlər yerinə yetirilmişdir. Sənayenin ümumi məhsulunda qeyri-dövlət bölməsinin xüsusi çəkisi 81,3 % təşkil etmişdir.

2016-cı ilin birinci yarısında nəqliyyat müəssisələri və avtomobil nəqliyyatı sahəsi üzrə fəaliyyət göstərən fiziki şəxslərin işi nəzərə alınmaqla 322,0 min ton yük, 3 milyon 880,0 min nəfər sərnişin daşınmış, 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 1,2 faiz, sərnişin daşınması isə 2,1 faiz artmışdır.

Rabitə müəssisələri tərəfindən əhaliyə, müəssisə və təşkilatlara faktiki qiymətlərlə 333,5 min manatlıq rabitə xidməti göstərmişdir. Göstərilmiş rabitə xidmətlərinin həcmi 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,8% artmışdır. Ümumi xidmətin 84,3 faizi bilavasitə əhalinin payına düşür. Hazırda rayonda hər 100 təsərrüfata 68 ədəd telefon aparatı düşür.

Əhalinin nominal pul gəlirləri 130 milyon 528,0 min manat olmuş, 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 7,5 % artmışdır. Adambaşına düşən pul gəlirləri 6,5 % artaraq 1529,3 manat olmuşdur. Rayon üzrə bir işçinin orta aylıq əməkhaqqı 246,0 manat təşkil edir.

01 iyul 2016-cı il tarixə pensiya və sosial müavinət alanların sayı 13848 nəfər olmuşdur. Ünvanlı dövlət sosial yardımı alanların sayı 1035 ailə olmuş, 139 kimsəsiz ahıl və əlillərə sosial məişət xidməti göstərilmişdir. Pensiya və müavinətlər əhaliyə vaxtında çatdırılmışdır.

2016-cı ilin 6 ayı ərzində Rayon Məşğulluq Mərkəzi tərəfindən 555 nəfər iş axtaran vətəndaş daimi iş yerləri ilə təmin olunmuş, 54 nəfərə işsiz statusu verilərək işsizlik müavinəti təyin edilmişdir.

Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına 8 sahibkara 1 milyon 599,0 min manat məbləğində güzəştli kredit verilmişdir.

2016-cı ilin birinci yarısında Rayon Paylayıcı Elektrik Şəbəkəsi tərəfindən rayona 82,0 milyon kvt.saat elektrik enerjisi verilmiş, o cümlədən elektrik enerjisinin 21,5 milyon kvt.saatı əhaliyə satılmışdır. Enerjinin dəyəri rayon üzrə 71,8 faizi və əhali üzrə 94,9 faizi ödənilmişdir. Əhali abonentlərinin sayğaclaşdırılması 99,0 % təşkil edir.

2016-cı ilin 6 ayı ərzində Salyan Regional Qaz İstismar İdarəsi tərəfindən rayona 9 milyon 276,6 min kubmetr həcmində təbii qaz verilmiş, o cümlədən əhaliyə satılan qazın ümumi həcmi 8 milyon 427,8 min kubmetr olmuş, bunun da dəyəri rayon üzrə 96,2 faiz və əhali üzrə 97,8 faizi ödənilmişdir. Əhali abonentlərinin sayğaclaşdırılması 100% təşkil edir. Hesabat dövründə "Azəriqaz" İstehsalat Birliyi tərəfindən rayonun Yuxarı Qaramanlı, Qırmızıkənd, Xolqarabucaq, Mürsəqulu, Dördlər-Xol, Xoltəzəkənd, Xolqaraqaşlı və Xəzərkənd kəndləri olmaqla 8 kəndi təbii qazla təmin olunmuşdur.

2016-cı ilin birinci yarısında rayonda fəaliyyət göstərən üç nərəbalıqartırma zavodu tərəfindən 7 milyon 663,0 min ədəd nərə cinsli körpə balıqlar yetişdirilərək Kür çayı vasitəsilə Xəzər dənizinə buraxılmışdır. Bu da 2015-ci ilin müvafiq dövründə olan göstəricidən 15,8% çoxdur.

Rayonda 2016-cı ilin altı ayında aqrar sahədə müsbət irəliləyişlər olmuşdur. Belə ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə 2016-cı ilin altı ayında kənd təsərrüfatının ümumi məhsulu 65,4 milyon manat olmuşdur. Göstərilən dövrdə diri çəkidə 6025,0 ton ət, o cümlədən 4081 ton quş əti, 9910,0 ton süd, 4 milyon 50 min ədəd yumurta, 268,0 ton yun istehsal olunmuşdur. 2016-cı ilin məhsulu üçün 46 min 413 hektar sahədən 105 min ton taxıl istehsal olunmuş, ölkə rəhbərinin müvafiq tapşırığına əsasən 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 7 dəfə çox olmaqla ümumilikdə 1541 hektar sahədə pambıq əkilmişdir. 2016-cı ilin 6 ayında 24 min 200 ədəd ağac və gül kolları əkilmiş, bitkiçilik sahəsindən yüksək məhsul götürmək məqsədi ilə meliorativ tədbirlərin həyata keçirilməsində müəyyən işlər görülmüşdür. Rayon Su və Meliorasiya təşkilatları tərəfindən 336,6 km suvarma kanalları, 155,9 km kollektor-dren sistemi lildən təmizlənmiş, suvarma kanallarında 36 ədəd, kollektor - drenlərdə 22 ədəd hidrotexniki qurğular və nasos aqreqatları əsaslı və cari təmir edilmişdir.

Heyvandarlığın inkişafı sahəsində müsbət irəliləyişlərə nail olmaqla 2016-cı ilin altı ayında iribuynuzlu mal-qaranın sayı 43 min 63, qoyun və keçilərin sayı 137 min başa çatdırılaraq ötən ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 252 və 1265 baş artmışdır.

Rayonda 14 min 500 hektardan yuxarı əkin sahələrinin suvarma suyu ilə təmin olunmasında ciddi çətinliklərin yaranması ilə əlaqədar Kür çayından Xol zonasına 25 km uzunluğunda Neftçala Magistral Kanalının nasos stansiyası ilə birlikdə layihəsinin tikintisinə 2006-cı ildə başlanmışdır. Kanalın tikintisi üçün ümumilikdə 14 milyon 818 min manat vəsait ayrılmışdır. Hazırda tikinti işləri davam etdirilir.

Rayon icra hakimiyyəti 2016-cı ilin birinci yarısında təmir, tikinti və abadlıq işlərinin görülməsini diqqət mərkəzində saxlamış, həyata keçirilən işlərin keyfiyyətinə xüsusi önəm vermişdir.

2016-cı ilin 6 ayında rayon ərazisində tikinti işlərində əsas kapitala yönəldilmiş, investisiyanın ümumi həcmi 10 milyon 702,0 min manat təşkil etmişdir. O cümlədən tikinti-quraşdırma işlərinin həcmi 10 milyon 60,5 min manat yerinə yetirilmişdir. Ötən ilin eyni dövrü ilə müqayisədə investisiya qoyuluşu 2,2 dəfə və tikinti-quraşdırma işləri 2,2 dəfə artmışdır.

Azərbaycan Respublikası Prezidentinin "Neftçala Sənaye Məhəlləsinin yaradılması haqqında" 02 fevral 2015-ci il tarixli 1011 nömrəli Sərəncamına, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 06 aprel 2015-ci il tarixli 84s nömrəli Sərəncamına əsasən Neftçala şəhərində Dövlət Torpaq Fondu ərazisindən 10 (on) hektar torpaq sahəsini "Azərbaycan İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinə icarə vermək hüquqi ilə daimi istifadəyə ayrılmış torpaq sahəsində tikinti işlərinin tamamlanması yönündə işlər davam etdirilir.

Uzunluğu 55 km 140 metr olan 21 yaşayış məntəqəsini əhatə edən, 37 min əhalinin yaşadığı Neftçala rayonunun Şorkənd-Beştalı-Bankə-Şirvanlı avtomobil yolunda tikinti işləri uğurla aparılmış, yolda nəzərdə tutulan 76 ədəd su ötürücü borulardan 33 su ötürücü boru tikilmiş, 36 km hissəsində yararsız qrunt torpaq çıxarılaraq yenisi ilə əvəz olunmuş, yolun 7,0 km hissəsində torpaq yatağının təmiri başa çatdırılmışdır.

Dövlət Sosial Müdafiə Fondunun Neftçala filialının və Kənd Təsərrüfatı Nazirliyinin "İnzibati Laboratoriya" binasının tikintisi sona çatdırılmışdır, ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində şəhərin mərkəzi hissəsində yerləşən uzunluğu 3,7 km və sahəsi 34 hektar olan "Axmaz göl"ün təmizlənməsi və dərinləşdirilməsi işləri aparılmışdır. Neftçala şəhərinin giriş lövhəsi tikilmişdir. Çoxmərtəbəli yaşayış binaların fasad hissələrinin təmiri, bir çoxmərtəbəli yaşayış binasının dam örtüyünün əsaslı təmiri, iki mini futbol meydançasının tikintisi və quraşdırılması işləri aparılmışdır.

Şəhərdaxili avtomobil yollarında əsaslı təmir işləri aparılaraq, 17 min 286 kvadratmetr asfalt örtük döşənmişdir.

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən 2013-cü ilin avqust ayından Neftçala Mərkəzi Rayon Xəstəxanasında əsaslı təmir işlərinə başlanılmış və hazırda davam etdirilir. Neftçala şəhəri M.Ə.Sabir küçəsində Neftçala avtovağzalının tikintisinə başlanılmış, hazırda tikinti işləri uğurla davam etdirilir.

Cari ilin altı ayı ərzində rayonun təhsil müəssisələrində təlim-tərbiyənin səviyyəsinin daha da yüksəldilməsi və təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı bir sıra işlər görülmüşdür. Belə ki, istedadlı şagirdlərin aşkara çıxarılmasında əhəmiyyətli rol oynayan fənn olimpiadalarının rayon və yarımfinal turları keçirilmiş, olimpiadanın final mərhələsində iştirak etmək hüququ əldə etmiş 8 iştirakçıdan 4 nəfəri fizika və Azərbaycan dili və ədəbiyyatı fənləri üzrə I, II və III yerə layiq görülmüş və qaliblər Təhsil Nazirliyinin medal və diplomları ilə mükafatlandırılmışlar.

Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən bu ilin iyun ayında rayonun ümumtəhsil məktəblərinin buraxılış sinif şagirdləri üçün attestasiya imtahanı keçirilmiş, rayon üzrə IX sinfi 789 nəfər, XI sinfi isə 659 nəfər şagird bitirmişdir.

Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş "Ən yaxşı təqdimat" müsabiqəsinin təşkili ilə bağlı seçim turları keçirilmiş, Qədimkənd kənd tam orta məktəbin şagirdi rayon üzrə ən yaxşı nəticə göstərərək respublika mərhələsində rayonumuzu təmsil etmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən "Ölkəmizi tanıyaq" layihəsi çərçivəsində şagirdlər üçün respublikanın gəzməli-görməli yerlərinə turlar təşkil olunmuş, həmin turlarda Neftçala rayonundan olan məktəblilər də iştirak etmiş, rayon məktəblərindən seçilmiş 40 nəfər fəal şagird martın 16-dan 19-dək Gəncə şəhərinə, Şəmkir və Göygöl rayonlarına ekskursiya etmiş, onlar həmin yerlərin tarixi, mədəniyyəti və gəzməli yerləri ilə tanış olmuşlar.

Cari ilin altı ayında Mərkəzi Rayon Xəstəxanasının xidmət ərazisi üzrə 438 körpə doğulmuş, yeni doğulan körpələrin 99,6 %-də vaksinasiya tədbirləri həyata keçirilmişdir. Yarım il ərzində ana ölümü hadisəsi baş verməmiş, 0-1 yaşda 1 uşaq ölümü olmuşdur.

Ölkə Prezidenti cənab İlham Əliyevin respublika əhalisinin ümumi profilaktik tibbi müayinələrə cəlb olunması barədə verdiyi tapşırığına əsasən fevral ayından rayon ərazisində əhalinin tibbi müayinədən keçirilməsinə başlanılmış, bu məqsədlə 3-ü səyyar olmaqla 5 həkim briqadası yaradılmış, tərtib edilmiş qrafikə əsasən rayonun idarə, müəssisə və təşkilatların kollektivlərinin, eləcə də yaşayış məntəqələri üzrə əhalinin tibbi müayinələrdən keçməsi təmin edilmişdir. Ümumilikdə rayon üzrə 72293 nəfər profilaktik tibbi müayinələrdən keçmişdir ki, bunun da 11374 nəfərini 0-18 yaşda olan əhali kontingenti təşkil edir.

Rayon icra hakimiyyəti başçısı tərəfindən yerlərdə əhali ilə əlaqələri möhkəmləndirmək, onları narahat edən sosial problemlərin öyrənilməsi və həlli istiqamətində müvafiq tədbirlərin görülməsi ilə əlaqədar müntəzəm səyyar görüş və qəbulların keçirilməsi daim diqqət mərkəzində olmuşdur. Bununla bağlı rayon icra hakimiyyəti başçısının səyyar görüş və qəbulların keçirilməsi üçün illik qrafik tərtib olunmuşdur. 2016-cı ilin 6 ayında icra hakimiyyəti başçısı tərəfindən 21 səyyar görüş və qəbul keçirilmiş və bu görüşlərdə 2065 nəfər iştirak etmişdir. Keçirilən görüşlərdə 101 nəfər 83 tənqidi qeyd və təkliflə çıxışlar edərək, meliorasiya və irriqasiya tədbirlərinin həyata keçirilməsi, yol və körpülərin inşası və ya təmiri, təhsil müəssisələrinin təmiri və ya inşası, elektrik təsərrüfatının yenidən qurulması, mavi yanacaq ilə təminat və s. məsələləri diqqətə çatdırmışlar.

Rayon icra hakimiyyəti Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin göstərişlərini, imzaladığı fərman və sərəncamlarını və Azərbaycan Respublikasının qanunlarını əldə rəhbər tutub vətəndaşların qəbulu, onların müraciətlərinə baxılmasının səmərəliliyini artırmaq məqsədilə bundan sonra da lazımi tədbirlər görəcək və gələcək fəaliyyətində öz işini günün tələbləri səviyyəsində quracaqdır.

Sonda Respublika Prezidentinə müraciət qəbul olundu.

**Asim MUSTAFAYEV,**
**"Respublika".**